# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 31

Bakı şəhəri „10" may 2016 il

**"Qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair Strategiyanın icrası üzrə İcra və əlaqələndirmə qrupunun yaradılması barədə"**

Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2015-ci il tarixli 1645 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın 9.1.1-ci bəndinin icrasının təmin edilməsi məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnaməsinin 14,5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair Strategiyanın icrası üzrə aidiyyəti dövlət orqanlarının nümayəndələri daxil olmaqla İcra və əlaqələndirmə qrupu yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).

2. İcra və əlaqələndirmə qrupuna tapşırılsın:

2.1. Strategiyanın həyata keçirilməsində effektiv sahələrarası əlaqələndirməni təmin etsin;

2.2. Strategiyanın icrası ilə bağlı əsas fəaliyyət istiqamətlərində nəzərdə tutulmuş məsələlərin aidiyyəti üzrə icrasının idarəolunmasını təmin etsin;

2.3. görülmüş işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim etsin.

3. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə olunsun.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 10.05.16 tarixli 31 nömrəli əmri ilə təsdiq edilmişdir

## İcra və Əlaqələndirmə Qrupunun tərkibi

| | |
|---|---|
| 1. Zəkiyyə Mustafayeva | -Səhiyyə Nazirliyi Aparatının rəhbəri; qrupun rəhbəri |
| 2. Təranə Nəzərova | -Tibbi yardımın təşkili şöbəsinin aparıcı məsləhətçisi; |
| 3. Töhfə Cəmilova | -İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri; |
| 4.Ziyəddin Kazımov | -Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri; |
| 5. Şükür Əhmədov | -Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin Vergi siyasəti idarəsinin baş dövlət vergi müfəttişi; |
| 6. Anar Xələfov | -Təhsil Nazirliyinin Deinstitutlaşma və uşaqların müdafiəsi idarəsinin şöbə müdiri; |
| 7. Nərmin Aslanbəyova | -Gənclər və İdman Nazirliyinin Sağlam həyat tərzinin təbliği və sosial proqramlar sektorunun müdiri; |
| 8.Rövşən Vəliyev | -Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillərlə bağlı dövlət siyasəti sektorunun müdiri; |
| 9. Nəbi Nəbizadə | -İqtisadiyyat Nazirliyinin İqtisadi və sosial sahələrin inkişafı şöbəsinin baş məsləhətçisi; |
| 10.Vəli Qarayev | -Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin Baytarlıq nəzarəti şöbəsinin böyük məsləhətçisi; |
| 11.Nurlana Qaraxanova | -Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq problemləri şöbəsinin baş məsləhətçisi. |